**UOT 339.9; 339.9:061(100)**

# MİLLİ VƏ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN NƏZƏRİ-METODOLOJİ ASPEKTLƏRİ

**H.H.ASLANOV, N.İ.ƏLİYEVA**
***Bakı Dövlət Universiteti***
** dosent1966@mail.ru*

*İqtisadi təhlükəsizliyin məqsədi hər şeydən əvvəl dövlətin milli marağını qorumaqdır. Milli təhlükəsizlik milli iqtisadiyyatın, insanların həyat şəraitinin təminatına aid edilir. Dövlətin milli təhlükəsizliyinin təmin edilməsi çətin və uzunmüddətli prosesdir. Milli dövlət, milli mənafe və iqtisadi təhlükəsizlik problemləri bir - birini tamamlayan, geniş funksional və davamlı mühüm bir prosesdir. Burada ölkənin daxili və xarici siyasətinin səmərəli tənzimlənməsi əsas şərtlərdən hesab olunur. Məqalədə bu və digər məsələlər ətraflı şərh edilmişdir.*

**Açar sözlər:** qloballaşma prosesi, iqtisadi təhlükəsizlik, dövlət büdcəsi, iqtisadi inkişaf, sosial tələblər

Müasir dövrün mürəkkəb və ziddiyyətli qloballaşma prosesləri onun, istər ümumdünya miqyasında, istərsə də milli səviyyədə idarə olunmasını tələb edir. Bu proseslər milli dövlətlər qarşısında keyfiyyətcə yeni tələblər qoyur.

Milli maraqların qorunması və milli təhlükəsizliyin təmin edilməsi problemləri milli dövlətlər, xüsusən, müstəqillik yoluna yenicə qədəm qoymuş ölkələr üçün həyati əhəmiyyət kəsb edir.

Qloballaşma inkişaf səviyyəsindən asılı olmayaraq milli iqtisadi sistemləri qlobal səviyyədə fəaliyyət göstərən "oyunçuların" sərt rəqabət mübarizəsinə cəlb edir. Ona görə də milli iqtisadiyyatın qlobal mühitə itkisiz və səmərəli uyğunlaşdırılması bu gün milli dövlətlər qarşısında duran və həyati əhəmiyyət kəsb edən məsələdir [4, 82].

Cəmiyyət mövcud olandan indiyə kimi insanlar bir-birilə daim mübarizə apararaq düşmənçilik etmişlər. Bu mübarizənin əsasında var-dövlətə, vəzifəyə, torpağa sahib olmaq arzusu dayanırdı. Bu kimi hallar isə xalqlar və ölkələr arasında ziddiyyətlər yaradırdı.

Bir halda ki, təbiətlə cəmiyyət, millətlər və dövlətlər arasında bir-birinə qarşı təhlükə yaratmaq meyli və imkanı var, deməli, onların qarşısının alınması, yəni təhlükəsizlik tədbirlərinin görülməsi dövlət üçün vacib idi.

Ölkənin iqtisadi təhlükəsizliyini müəyyənləşdirmək üçün bir çox ümumi

və sınaqdan çıxmış metodlar vardır. Bunlardan biri öz əhəmiyyətinə görə digər iqtisadi göstəricilərdən daha böyük əhəmiyyət kəsb edən mühüm makroiqtisadi göstəricidir. Digəri isə tədqiq olunan hadisə və prosesin kəmiyyət və keyfiyyət göstəricilərinin ekspert qiymətləndirilməsi metodudur. Hər hansı sahənin problemlərini yaxşı bilən şəxslərdən ekspert qrupu təşkil olunur və onlar əsas göstəriciləri hərtərəfli öyrəndiklərindən, tədqiq etdikdən sonra müəyyən rəyə gəlirlər. Ölkənin iqtisadi təhlükəsizliyinin səviyyəsi bal sistemi ilə qiymətləndirilir. Müəyyən edilmiş nəticələr əsasında həm bütövlükdə ölkənin, həm də müxtəlif sahələrin iqtisadi təhlükəsizlik səviyyələri təhlil olunur və bunun əsasında ölkənin iqtisadi təhlükəsizliynin strategiyası müəyyənləşdirilir.

XVII-XVIII əsrlərdə əmtəə-pul münasibətlərinin inkişafı ilə əlaqədar olaraq bazar iqtisadiyyatı sisteminin formalaşması dövlətin məqsədinin dəyişməsinə səbəb olmuşdur. Başqa sözlə, dövlətin təhlükəsizliyi ön plana keçmiş və onun məzmununda dəyişikliklər əmələ gəlmişdir. Onun məzmununa ölkənin daxilində sakitliyi təmin etmək, insanları fiziki və mənəvi təhlükələrdən qorumaq, siyasi və iqtisadi sahələrin təhlükəsizliyini təmin etmək kimi komponentlər də daxil edilmişdir. Beləliklə, iqtisadi təhlükəsizlik probleminin mahiyyəti əksər fəaliyyət sferalarının, sistemdaxili inteqrativ bağlılığı, inkişafı və onun dayanıqlılığını özündə ehtiva edən kompleks anlayışdır. Bütün bunların nəzərə alınması baxımından, həmin problemin mahiyyətinə müasir yanaşmanın məzmununu olduğu kimi qəbul etmək olar: “iqtisadi təhlükəsizlik probleminin mahiyyətini iqtisadiyyatın və hakimiyyət inistutlarının elə bir vəziyyəti kimi xarakterizə etmək olar ki, bu halda milli mənafelərin ödənməsini, siyasətin sosial yönümlülüyünü, daxili və xarici proseslərin, hətta əlverişli olmadığı şəraitdə də ölkənin müdafiə potensialının təminatı aspektində başa düşmək olar”.

İqtisadi təhlükəsizliyin məqsədi hər şeydən əvvəl dövlətin milli marağını qorumaqdır. V.Pankov iqtisadi təhlükəsizik haqqında belə yazır: “Bu iqtisadiyyatın elə bir vəziyyətidir ki, həmin vəziyyətdə ictimai istehsal prosesinin normal fəaliyyətinə əngəl törədən, əhalinin əldə edilən həyat səviyyəsinə xələl gətirən və bunlar da cəmiyyətdə sosial gərginliyi artıran, həmçinin ölkənin mövcudluğuna təhlükə törədən hallara qarşı iqtisadiyyatın immuniteti olur”.

Bazar iqtisadiyyatı sisteminin formalaşması və inkişafı zamanı xammal mənbələri, satış bazarları və ucuz işçi qüvvəsi əldə etmək uğrunda dövlətlər arasında mübarizə genişlənmişdir. Bu zaman milli təhlükəsizlik problemi ön plana çıxmışdır. Bu baxımdan milli təhlükəsizlik siyasi anlayışı ilk dəfə 1904-cü ildə ABŞ prezidentinin diplomatik nümayəndəsi ABŞ Konqresində işlətmişdir. O, burada ABŞ-ın Panama kanalını ələ keçirmək üçün onun hərbi təcavüzünə haqq qazandırmağa çalışmış və sübut etmişdir ki, bu hadisə ABŞ-ın milli mənafeyinə uyğundur.

Milli təhlükəsizlik milli iqtisadiyyatın habelə, insanların həyat şəraitinin təminatına aid edilir. H.Kissencerə görə milli təhlükəsizlik millətin həyat təlɘba-

tının ödənilməsindən ibarətdir. Z.Bjezinski isə milli təhlükəsizliyi hərbi qüdrətə, iqtisadi, sosial, siyasi, mənəvi inkişaf sahələrinə aid edilir. Ona görə də milli təhlükəsizliyin əsas əlaməti diplomatiya və azadlıqdır. Totalitar tipli siyasi rejimlər milləti qorxu altında yaşadır, azad fikir, plüralizmi qadağan edir.

Təhlükəsizliyin təmin olunması üzrə fəaliyyət obyektinin dərk edilməsi ona mürəkkəb sistem kimi baxılmasını tələb edir. Bu sistem bir-birilə şaquli vəziyyətdə əlaqədə olan üç səviyyədən ibarətdir;

1.Şəxsiyyətin təhlükəsizliyi.

2.Cəmiyyətin təhlükəsizliyi.

3.Dövlətin təhlükəsizliyi.

Təhlükəsizliyin təmin olunması üzrə fəaliyyət predmetinin başa düşülməsi bu sistemin üfüqi səviyyəsinin müəyyən edilməsinə imkan verir. Məsələn: elmi-texniki informasiya, hərbi, siyasi təhlükəsizliyin təmin olunması.

S.A.Proskurininə görə milli təhlükəsizlik təminatının iki başlıca amili vardır:

1) Dövlət milli təhlükəsizliyin başlıca təminatçısıdır;

2) Millətin inkişaf səviyyəsi, milli özünüdərketmə, milli mənafeyi qorumaq qabiliyyətinə malik olması;

Milli təhlükəsizlik anlayışı milli maraqlar anlayışı ilə sıx əlaqədardır. Təhlükəsizlik milli maraqların törəməsidir. Milli təhlükəsizlik son nəticədə - dövlətin, cəmiyyətin və fərdin həyati əhəmiyyətli maraqlarının təmin olunmasına yönəldilmiş strategiyadır [ 7, 15 ].

Dövlətin milli təhlükəsizliyinin təmin edilməsi çox çətin və uzunmüddətli prosesdir. Bu, Azərbaycan dövləti üçün çətin və mürəkkəbdir. Bunun bir çox obyektiv və subyektiv səbəbləri vardır. Belə ki, Azərbaycanın gözəl təbii iqlim şəraitinin olması, rəngarəng və tükənməz təbii sərvətləri, mühüm strateji məkanda yerləşməsi dünyaya ağalıq etmək iddiasında olan dövlətlərin diqqətini özünə çəkmişdir. Bunun nəticəsində Azərbaycan uzun illər Çar Rusiyasının, Sovet imperiyasının müstəmləkəsi olmuş, onun iqtisadiyyatı, millətin mənəviyyatı deformasiyaya uğramışdır. Azərbaycan müstəqilliyi bərpa etdikdən sonra Azərbaycan müstəqilliyini istəməyən və ona bütün vasitələrdən istifadə edərək mane olan dövlətlər milli təhlükə mənbəyi olaraq qalırlar. Bura, ilk növbədə Rusiya, İran və Ermənistan daxildir. Azərbaycanın bunlarla həmsərhəd olması və birinci iki dövlətin Azərbaycana nisbətən hərtərəfli güclü olmasıdır. Buna görə də Azərbaycan dövləti milli təhlükəsizliyin təmin olunmasına xüsusi fikir verir və onu qanunvericilik əsasında tənzimləyir. Bu problem hər şeydən öncə Azərbaycanın Konstitusiyasında öz əksini tapmışdır. Bundan başqa bu problemin həllinə 31 avqust 2004-cü ildə "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının qanunu mühüm əhəmiyyət kəsb edir. Bu qanun Azərbaycan Respublikasının müstəqil, suveren, demokratik dövlət kimi inkişafı naminə milli təhlükəsizlik siyasətinin hüquqi əsaslarının yaradılmasına yönəlmişdir. Qanunda Azərbaycan Respublikasının milli təhlükəsziliyinin məqsədi aşağıdakı kimi müəyyən edilmişdir: "Azərbaycan Respublikasının

milli təhlükəsizliyi-dövlətin müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü, konstitusiya quruluşunu, xalq və ölkənin milli maraqlarını, cəmiyyətin və dövlətin hüquq və mənafelərini daxili və xarici təkidlərdən qorunmasının təmin edilməsidir”.

Qanunda həmçinin milli təhlükəsizliyin obyektləri və subyektləri də öz əksini tapmışdır. Orada deyilir: “Azərbaycan Respublikasının milli təhlükəsizliyinin obyektləri aşağıdakılardır:

1) insan-onun hüquq və azadlıqları;

2) cəmiyyət-onun maddi və mənəvi dəyərləri;

3) dövlət-onun müstəqilliyi, suverenliyi, konstitusiya quruluşu və ərazi bütövlüyü.

Azərbaycan Respublikasının milli təhlükəsizliyinin subyektləri insanların, cəmiyyətin və dövlətin təhlükəsizliyi maraqlarının və tələbatlarının təmin edilməsi məqsədilə yaradılmış dövlət hakimiyyəti orqanlarıdır.

Akademik Ramiz Mehdiyev Azərbaycanda milli təhlükəsizliyin təmin edilməsinin əhəmiyyəti və strateji istiqamətlərini müəyyən etmişdir. “Yeni dünya nizamının təşəkkülü perspektivini nəzərə almağın zəruriliyi belə bir real faktı inkar etmir ki, bu gün formalaşmaqda olan Azərbaycan cəmiyyətinin mahiyyəti milli siyasətlə, milli təhlükəsizlik və milli inkişaf konsepsiyaları ilə müəyyənləşdirilir. Daha geniş səpkidə götürdükdə, milli təhlükəsizlik dövlətin öz yaxın və uzaq qonşuları ilə münasibətlərinin necə təşəkkül tapmasından asılıdır. Bu ölkələrlə iqtisadi, siyasi, mənəvi, mədəni münasibətlərin yaradılması və onların inkişaf etdirilməsi prinsipcə hər bir dövlətin uzunmüddətli milli mənafelərinə cavab verməsidir [ 2, 15].

Milli iqtisadi təhlükəsizlik problemini kəskinləşdirən əsas məsələ məhz iqtisadi asılılığın “mümkün” sərhədlərinin müəyyənləşdirilməsi zəruriliyidir. Başqa sözlə iqtisadi asılılığın mövcudluğu öz-özlüyündə milli mənafelərin təminatına mənfi təsir göstərir. Bu hal xüsusilə keçid iqtisadiyyatlı ölkələr üçün daha çox aktual əhəmiyyət kəsb edir. Belə ki, sistem dəyişikliyi şəraitində xarici yardımın mühüm rol oynaması artıq hər cür şübhədən uzaqdır.

Beləliklə, iqtisadi asılılıq probleminə yanaşmada başlıca məsələ onun “təhlükəsizlik” sərhədlərinin müəyyənləşdirilməsi və onun qorunub saxlanılmasından ibarətdir. Eyni zamanda milli və iqtisadi təhlükəsizlik anlayışlarının bir-birindən əhəmiyyətli dərəcədə fərqlənən müstəvilər üzərində şərh etməyə çalışmaq da düzgün yanaşma hesab edilə bilməz. Bu halda söhbət milli təhlükəsizliyin daha geniş əhatə dairəsinin (siyasi, hərbi, informasiya, ekoloji və s.) özündə ehtiva etdiyini nəzərə almaqdan gedir. Başqa sözlə iqtisadi təhlükəsizlik sisteminin yalnız bir istiqamətini əks etdirir. Bununla belə onun bütövlükdə milli təhlükəsizlik sisteminin formalaşdırılmasında əsaslı rol oynadığı da şübhəsizdir. Belə ki, hər şeydən əvvəl, qeyd olunan problemə yanaşmada sistemliliyin təminatı iqtisadi aspektin önə çıxarılmasını tələb edir. İkincisi, mənafelərin spesifikliyi və milli aspektin ümumi mənafelərdən fərqləndirmək zəruriliyi və ümumiyyətlə milli mənafelər arasında fərqliliyin

nəzərə alınması mühüm məsələlərdən biridir. Üçüncüsü, ən ümumi şəkildə götürülərsə resursların məhdudluğu, onların dünya ölkələri arasında qeyri-bərabər bölgüsü artan tələbatın daha tam və dolğun ödənilməsi problemini həmin resurslardan istifadə sferasında ölkələrarası rəqabət mübarizəsini daha da gücləndirir. Dördüncüsü, müasir qloballaşma prosesinin gətirdiyi əsaslı dəyişikliklər fonunda ölkənin rəqabət qabiliyyətliliyi daha da kəskinləşir. Belə ki, istehsal və satış sferasında rəqabətə davamlılığın əldə olunması yeni istehsal texnologiyalarının sahiblik kimi son dərəcə zəruri olan maliyyə sferasının dəqiq fəaliyyət mexanizminə nail olma arasında prioritet mövqeyində bölgü artıq aradan qalxmışdır, yəni maliyyə bank sferasının səmərəli fəaliyyətini təşkil etmədən ölkənin rəqabət qabiliyyətliliyini yüksəltmək qeyri-mümkündür. Baxış onunla şərtlənir ki, digər ölkələrin rəqabət qabiliyyətliliyinin yüksəlişi istənilən halda bu səviyyəyə çatmayan ayrıca götürülmüş bir ölkənin milli iqtisadi, eləcə də bütövlükdə ümummilli təhlükəsizliyi baxımından real təhlükə mənbəyidir.

Məhz bu aspektdən Azərbaycan Respublikasının milli iqtsiadi təhlükəsizliyinin əsas strateji istiqamətləri ümumiləşdirilmiş formada sxem 1-də göstərilmişdir.

İqtisadi təhlükəsizlik strategiyasının təmin olunması üçün həyata keçirilən iqtisadi siyasət cəmiyyətin qütbləşməsində deyil, böhranlı dövrdə ağırlığın əhali təbəqələrinin üzərinə bərabər və ədalətli bölgüsünə xidmət göstərməlidir. Bu şəraitdə elə tənzimləmə mexanizmi seçilməlidir ki, iqtisadi cəhətdən güclü olan əhali qrupunun gəlirlərinə deklarasiya nəzarəti etmək mümkün olsun. Yüksək məhsuldar əməyə stimullaşdırıcı təsir edən əmək haqqının funksiyası gücləndirilməli və bu məsələnin həllində dövlətin rolu artırılmalıdır. Bu məqsədlə əmək haqqını gecikdirən müəssisə və təşkilat rəhbərlərinin maddi məsuliyyəti artırılmalıdır.

Ölkənin strateji marağını təmin etmək üçün ETT-nin və elmi potensialın rolu gücləndirilməlidir. Bu sahədə dövlətin prioritet rolu saxlanılmalıdır. Ölkənin digər ölkələrdən ETT-i asılılığını azaltmaq məqsədilə dövlət proqramları hazırlamalı, fundamental ETT işləri aparılması genişləndirilməlidir. Yuxarıda qeyd etdiyimiz kimi, iqtisadi təhlükəsizliyin təmin edilməsinin mühüm metodlarından biri makroiqtisadi göstəricilərdir. Bu baxımdan, ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunması üçün vergi sisteminin təkmilləşdirilməsi zəruridir. Elə tədbirlər həyata kecirilməlidir ki, vergi sistemi səmərəli fəaliyyət göstərə bilsin. Çünki dövlət büdcəsinin formalaşması əsasən vergilər hesabına həyata keçirilir.

Hər bir dövlətin iqtisadi təhlükəsizliyi qiymətləndirilərkən həmin ölkənin iqtisadi inkişaf səviyyəsi, onun keçdiyi inkişaf yolu, geoiqtisadi, geostrateji və başqa xüsusiyyətləri nəzərə alınmaqla yanaşı, iqtisadi təhlükəsizliyin qiymətləndirilməsinin ümumi metodları da tətbiq olunur. Bunlar aşağıdakılardır:

- optimal, ən münasib metod;
- nəzəri-oyun metodu;

- faydalılıq metodu;
- qeyri-səlis sistem nəzəriyyələri metodu;
- çoxmeyarlı statistik təhlil metodu.

Bütün bunlarla bərabər ölkənin iqtisadi təhlükəsizliyini qiymətləndirərkən ona çoxvariantlı yanaşma faydalı olur.

Milli dövlət, milli mənafe və iqtisadi təhlükəsizlik problemi bir-birini tamamlayan, geniş funksional və davamlı mühüm bir prosesdir. Burada ölkənin daxili və xarici siyasətinin səmərəli tənzimlənməsi ən əsas şərtlərdən hesab edilir. Bununla belə, ölkənin milli sərvətləri üzərində düzgün nəzarətin təşkil edilməsi iqtisadi inkişafda təhlükəsizliyin başlıca şərtidir. Dövlət sosial-iqtisadi strategiyanı həyata keçirmək, istehsal-sosial sahələrin inkişafına nail olmaq üçün onun təhlükəsizliyini təmin etməlidir. Beləliklə, iqtisadi təhlükəsizlik problemləri çoxcəhətli və mürəkkəb bir prosesdir [3, 128].

Dövlətin strateji məkanda yerləşməsi və buna görə də onların bu məkanda mənafelərinin toqquşması iqtisadi təhlükıəsizliyin təmin olunmasına mənfi təsiri qarşılıqlı əməkdaşlığın təşkil olunmasında nəzərə alınmalı və tarixi düşmən dövlətlər tərəfindən törədilə biləcək iqtisadi təhlükələr müəyyənləşdirilməli və onların qarşısının alınmasının üsul və vasitələri müəyyənləşdirilməlidir.

Müstəqillik qazandıqdan sonra dövlətin iqtisadi inkişaf yolu və əhalinin sosial tələblərinin ödənilməsi Azərbaycan Respublikasının 12 noyabr 1995-ci ildə qəbul edilmiş konstitusiyanın aşağıdakı iki maddəsində təsdiq edilmişdir: “Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət edir” (maddə 15) “Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsinə, onun sosial müdafiəsinə və layiqli həyat səviyyəsi qayğısına qalır” (maddə 16), [1, 9-10].

Dövlət çalışır ki, daxili və xarici təhlükə aradan qalxsın. Milli təhlükəsizlik problemi yalnız xarici təhlükənin aradan qalxması deyil, həm də milli dövlətə zidd daxili qüvvələrin, xüsusilə korrupsiyanın, terrorizmin, narkomaniyanın aradan qaldırılması ilə bağlıdır.

Qısa zaman ərzində müstəqil Azərbaycan Respublikası böyük çox çətin ola biləcək şərəfli yol keçmişdir. Respublikamızda hüquqi, sivil, dünyavi dövlət quruculuğu uğurla davam etdirilir, demokratikləşmə prosesi dərinləşir. Ölkəmiz iqtisadi təhlükəsizliyin transformasiyası ilə bazar iqtisadiyyatı sisteminə keçərək öz potensialının zəngin resurslarının taleyi artıq müstəqil dövlət kimi həll edir və intensiv inkişaf dövrünü yaşayır. Hazırda Azərbaycan Respublikası beynəlxalq iqtisadi sistemə inteqrasiya edərək dünya birliyinin tam hüquqlu üzvü kimi fəaliyyət göstərir.

Milli iqtisadi təhlükəsizlik

Milli mənafelərin əsas dəyişənləri

Ölkədaxili səviyyə

- maliyyə təhlükəsizliyi;
- valyuta təhlükəsizliyi;
- ərzaq təhlükəsizliyi
- xarici bazarlardan asılılığın minimuma endirilməsi;
- iqtisadi artım;
- ekoliji təhlükəsizlik;
- sair

Regional və beynəlxalq səviyyə

- dövlət müstəqilliyinin qorunması;
- suveren

Ümumsosial problemlərin həlli

BƏB sistemində layiqli yertutma

- ixtisaslaşma və koorparasiya;
- ticarət;
- maliyyə və bank sistemi;
- əsas mal bazarları;
- qiymətli kağızlar;

Sosial- iqtisadi inkişafın dayanıqlığına nail olma

Sxem 1.

Məsələnin daha da aydın təsviri aşağıdakı milli və iqtisadi təhlükəsizliyi əlaqələndirən sxem 2-də verilir.

Araşdırmalar göstərir ki, sxemdə qeyd edilən hər bir amilə ayrılıqda deyil yalnız kompleks formada yanaşıldıqda qarşıya qoyulmuş məqsədə nail olmaq olar. Odur ki, qısa da olsa, hər bir amil haqqında əsas cəhətləri qeyd etmək lazımdır:

- beynəlxalq təhlükəsizlik sistemində hər bir dövlətin xarici siyasəti onu təmin etməlidir;
- dövlətin qüdrətinin getdikcə möhkəmləndirilməsi, demokratiyanın ge-

nişləndirilməsi, vətəndaş cəmiyyətinin yaradılması və inkişaf etdirilməsi siyasi təhlükəsizliyin təmin edilməsinin əsas şərtləri hesab edilir;

- iqtisadi təhlükəsizlik xalqın həyat səviyyəsinin yüksəldilməsi, istehsal proseslərinin təkmilləşdirilməsi, sənaye və kənd təsərrüfatının inkişafı, yeni texnologiyanın tətbiq edilməsi, elmin, texnologiyanın nailiyyətlərindən, strateji ehtiyatlardan səmərəli istifadə edilməsindən ibarətdir;
- ekoloji təhlükəsizlik, əhalinin sağlam yaşamasının təmin edilməsi, təbiətin mühafizə edilməsi, radioaktivliyin zəhərli, kimyəvi maddələrin istehsalının qarşısının alınması və s-dən ibarətdir;
- demoqrafik təhlükəsizlik, əhalinin qanunauyğun təbii artımın işsizliyin təmin edilməsi, sağlamlığın qorunmasından ibarətdir;
- hərbi təhlükəsizlik, təcavüzkarlığın qarşısını almaq üçün ordunun hərbi-hava, hərbi-dəniz qüvvələrinin gücləndirilməsi, hərbi kadrların gücləndirilməsi, hərbi kadrların hazırlanması, ordunun daxili siyasi məsələlərdən istifadə edilməsi, ölkənin müdafiəsini təmin etmək hərbi müqavilələr bağlamaq imkanından istifadə edilməsidir;
- milli dilin, dinin, əxlaqın, mədəniyyətin, adət ənənənin yad təsirlərindən mühafizə edilməsi və s;

Milli və iqtisadi təhlükəsizliyin koordinasiyası aşağıdakı sxemdə verilir:

Milli təhlükəsizlik beynəlxalq hüququn subyekti kimi dövlətin suverenliyi ərazi bütövlüyü, daxili sabitliyi, dövlətçiliyini bərqərar olunması, durmadan möhkəmlənməsi, xalqın və ölkənin milli mənafeləri naminə həm də beynəlxalq miqyasda həyata keçirilən tədbirlər kompleksini nəzərdə tutur. Bütün qeyd edilənlərə tam uyğun olaraq 2003-cü ildə Azərbaycan Respublikasının ümummilli lideri H.Əliyevin sədrliyi ilə Milli Təhlükəsizlik Nazirliyinə müşavirə keçirildi və Prezident yanında Milli Təhlükəsizlik Şurası yaradıldı. Beləliklə, milli müdafiə, iqtisadi təhlükəsizlik, ekoloji təhlükəsizlik, yeraltı və yerüstü sərvətlərimiz üçün mümkün təhlükəsizliklər, maddi və mənəvi dəyərlərimizin, yaxud dövlət sirlərinin qorunması və s. maraq sahələri təhlükəsizlik problemləri zəncirinin əsas həlqələrini təşkil edir. Ölkənin milli təhlükəsizliyinə ziyan vura biləcək hər cür hadisənin qarşısını almaq üçün mümkün informasiyalar və proqnozlar vermək ən mühüm şərtlərdən biri hesab edilir. Beləliklə, milli və iqtisadi təhlükəsizlik bir-biri ilə qarşılıqlı əlaqədə olan və bir-birini şərtləndirən çoxcəhətli və mürəkkəb prosesdir. Məhz buna görə də Azərbaycan dövləti hüquqi qanunlarla iqtisadi sahədə milli təhlükəsizliyin tənzimlənməsinə xüsusi diqqət yetirir. “Milli təhlükəsizlik haqqında” Azərbaycan Respublikasının qanununda iqtisadi sahədə milli təhlükəsizliyinin təmin olunması tədbirləri müəyyənləşdirilmişdir ki, bunlara “Azərbaycan Respublikasının iqtisadi potensialının artırılması və bazar münasibətlərinin inkişaf etdirilməsi yolu ilə iqtisadi müstəqilliyin təmin edilməsi, ölkə iqtisadiyyatının inkişafını təmin edən təbii ehtiyatların, energetika əsaslarının və tranzit imkanlarının qorunması və möhkəmləndirilməsi; ölkə daxili və

beynəlxalq maliyyə təsisatları arasında qarşılıqlı sərfəli əməkdaşlığın gücləndirilməsi, daxili və xarici maliyyə ehtiyatlarının ölkə iqtisadiyyatının inkişafına yönəldilməsi; Azərbaycan Respublikasının iqtisadi potensialının qorunması məqsədilə büdcə vəsaitlərinin və dövlət ehtiyatlarının səmərəsiz istifadəsinə yol verilməməsi; iqtisadiyyatın inkişafının təmin edilməsi məqsədilə bank sisteminin təkmilləşdirilməsi; iqtisadiyyatda dövlət idarəetməsinin təkmilləşdirilməsi; iqtisadiyyatda qeyri-mütənasib inkişafın qarşısının alınması; iqtisadi sahədə həyata keçirilən sosial yönümlü islahatların hüquqi təminatının təkmilləşdirilməsi; milli məhsulların rəqabət qabiliyyətinin artırılması məqsədilə yerli istehsalçıların hüquqlarının müdafiə olunması; enerji ehtiyatlarının istehsalı, nəqli, nəqliyyat dəhlizinin istismarı ilə bağlı layihələrin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının dünya iqtisadiyyatına inteqrasiyası və s. daxildir".

Azərbaycanda sosial-iqtisadi inkişafın mövcud vəziyyəti göstərir ki, bütün bu məsələlərin müvəffəqiyyətlə həyata keçirilməsində səmərəli və qlobal xarakterli işlər görülmüş və bu istiqamətdə daha geniş tədbirlər görülməkdədir.

Ənənəvi bazar iqtisadiyyatına malik ölkələrdəki kasıb və yoxsul təbəqənin xeyrinə gəlirlərin yenidən bölüşdürülməsi sisteminin inkişaf etdirilməsi həmçinin sosial təminat sisteminin daha da təkmilləşdirilməsi sistemləri getdikcə gücləndirirlir. Bu sistem insanlara təkcə onların əməkdə iştirakına görə deyil, o cümlədən ləyaqətli yaşayış üçün minimum resursların əldə olunması hüquqlarına görə maddi nemətlərin təqdim olunması və bu nemətlərin əldə edilməsinə zəmanət verilməsi ilə xarakterizə olunur. Məhz həmin əsasdan bu ölkələrdə pensiya təminatı, tibbi sığorta, yoxsulluğa görə müavinət, işsizliyə görə müavinət, xalq təhsili, tibbi müayinə və s. sistemlər meydana çıxmış və müxtəlif sxemlər üzrə inkişaf etdirilməsi səciyyəvi haldır. Başqa sözlə, bu cür ölkələrdə iqtisadi fəaliyyət iqtisadi təhlükəsizliyin tərkib hissəsi olan demoqrafik təhlükəsizliklərlə xarakterizə olunur.

Son on ildə iqtisadiyyatın dinamik inkişafının nəticələrinin təhlili göstərir ki, Azərbaycan Respublikası iqtisadi təhlükəsizlik strategiyasını həyata keçirmək qüvvəsinə malikdir və bu istiqamətlərdə nəzərə çarpacaq nailiyyətlər əldə edilmişdir.




Sxem 2.

Bazar sisteminə yeni keçən ölkələrin iqtisadi təhlükəsizliyin təmin edilməsi obyektiv amillərdən daha çox subyektiv amillərdən asılıdır. Keçid dövrünü yaşayan hər bir ölkənin iqtisadi müstəqilliyinin əsas şərti olan iqtisadi təhlükəsizliyin təmin edilməsi ölkə başçısının təcrübəsindən, səriştəliyindən və yeri gəldikdə risk etmə qabiliyyətindən çox asılıdır. Azərbaycan Respublikasının az müddətdə sosial- iqtisadi inkişafa nail olması və əksər inkişaf etmiş ölkələr və beynəlxalq təşkilatlarla birgə əməkdaşlıq etmək və milli iqtisadi təhlükəsizliyin qorunmasına nail olmaq bilavasitə ümummilli lider H. Əliyevin düşünülmüş və elmi cəhətdən əsaslandırılmış sosial-iqtisadi strategiyanın həyata keçirilməsinin nəticəsidir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2002, 83 s.
2. Mehdiyev Ramiz. Azərbaycan: Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti. Bakı: Xalq qəzeti, 2008.16 yanvar.
3. Məmmədov N., Bərxudarov M.: İqtisadi Təhlükəsizlik. Bakı: İqtisad Universiteti, 2006, 452 s.
4. Rasimoğlu R. Qloballaşan iqtisadiyyat Azərbaycan prizmasında. Bakı: Nurlan, 2002, 165 s.
5. Vəliyev D. Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası. Bakı: Adiloğlu, 2008, 426 s.
6. Əli Həsənov. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan, 2005, 752 s.
7. Раджабли А. Теория национальной безопасности. Баку: ВСУ, 2005, 116 с.


## ТЕОРЕТИЧЕСКИЕ-МЕТОДОЛОГИЧЕСКИЕ АСПЕКТЫ НАЦИОНАЛЬНОЙ И ЭКОНОМИЧЕСКОЙ БЕЗОПАСНОСТИ


**Г.Г.АСЛАНОВ, Н.И АЛИЕВА**



## РЕЗЮМЕ

Основная цель экономической безопасности является защита национальных интересов. Национальная безопасность рассматривается как поддержание национальной экономики и условий жизни людей. Предоставление государственной национальной безопасности является трудным и длительным процессом. Национальные государства, национальные интересы и экономические проблемы безопасности широкие функциональные, стабильные и важные процессы, которые завершают друг друга. Эффективное управление внутренней и внешней политики страны рассматривается здесь как важный фактор. В статье эти и другие проблемы широко объяснены.



**Ключевые слова:** процесс глобализации, экономическая безопастность, государственный бюджет, экономическое развитие, социальные требования


## THEORETICAL AND METHODOLOGICAL ASPECTS OF NATIONAL AND ECONOMIC SECURITY


**H.H.ASLANOV, N.I.ALIYEVA**



## SUMMARY

The main aim of the economic security is to protect national interest. National security is considered as maintenance of national economy and the people's living conditions. Provision of state national security is difficult and a long process. National state, national interest and economic security problems are wide functional, stable and important processes that complete one another. Here, efficient control of a country's internal and external policy is considered as an important factor. The article widely analyzes this problem and other problems.



**Key words:** the process of globalization, economic security, the state budget, economic development, social news